11.Poulmarc'h M., Laneri N., Hasanov, E.L. Innovative approach to the research of ethnographic-archaeological heritage in Ganja based on materials of kurgans. International Scientific Journal Theoretical & Applied Science, 2019. Issue 09, vol. 77, part 4. p. 341-345.
12.Smith W., Hasanov E.L. (2013). Importance of handicraft traditions in investigation of history of urban culture in Ganja. International Scientific Journal Theoretical & Applied Science, 2013. Issue 11, vol., 7, p. 61-66. doi: http://dx.doi.org/10.15863/TAS.2013.11.7.10
The dawn of Art. Leningrad: Aurora Art Publishers, 1974, 196 p.

**ЗНАЧЕНИЕ ПАМЯТНИКА СЕБЗИКАР В ИССЛЕДОВАНИИ ТРАДИЦИОННЫХ РЕМЕСЛЕННЫХ И АРХИТЕКТУРНЫХ СТИЛЕЙ В ГЯНДЖЕ**

***Гасанов Эльнур Лятиф оглу***

***Резюме***

В научной работе рассматривается значение кладбища Себзикар как источника в изучении местных ремесленных и архитектурных традиций в Гяндже с историко-этнографической точки зрения. В статье раскрывается значение изучения древних надгробий и надгробных памятников в исследовании таких традиционных ремесел как каменотесное дело, каменообработка, каллиграфия, гончарное дело, а также характерных особенностей строительства, местных архитектурных стилей в этом древнем городе в период позднего средневековья на основе изучения многочисленных научных и исторических источников, архивных документов.

**SIGNIFICANCE OF SEBZIKAR MONUMENT IN RESEARCH OF TRADITIONAL HANDICRAFT AND ARCHITECTURAL STYLES IN GANJA**

***Hasanov Elnur Latif oglu***

***Summary***

In this scientific work has been investigated the significance of Sebzikar grave-yard as a source in the study of local handicraft and architectural traditions in Ganja from the historical and ethnographic point of view. The article reveals the importance of studying ancient gravestones and gravestones in the study of such traditional crafts as masonry, stone processing, calligraphy, pottery, as well as the characteristic features of construction, local architectural styles in this ancient city during the late Middle Ages, based on the study of numerous scientific and historical sources, also various archival documents.

***Rəyçi: t.e.d., prof. Nərgiz Quliyeva.***

***AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun 08 sentyabr 2021-ci il tarixli 09 saylı iclas protokolu.***

***Daxil olduğu tarix 06 oktyabr 2021-ci il***

**UOT:94.**

# CEYMS KARTER VƏ ABŞ -IN XARİCİ SİYASƏTİ

***Dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***Huseyn.bextiyarli@bk.ru***

**Xülasə:** *Məqalədə ABŞ-ın 39-cu prezidenti olan Ceyms Karterin fəaliyyəti araşadırılır. Qeyd edilir ki, prezident seçilənədək O, müxtəlif vəzifələr tutmuş, ABŞ cəmiyyətində yetərincə tanınmışdır. Prezident vəzifəsinin icrasına başladıqdan sonra çox istiqamətli xarici siyasət xətti müəyyənləşdirmiş və həyata keçirmişdir. Karter həm Qərb, həm də Şərq yarımkürəsində aktiv siyasət yeritmiş və bununla ABŞ-ın ənənəvi beynəlxalq nüfuzunu qoruyub saxlamışdır.*

*Kuba istisna olmaqla Şimali və Cənubi Amerika dövlətləri demək olar ki, ABŞ-dan iqtisadi cəhətdən asılı olmuşdur. Buna görə digər Amerika dövlətləri inqilabi hərəkatlara başlamış və ancaq, qismən müvəffəqiyyət qazana bilmişlər. Karterin Şərq siyasəti də ABŞ-ın beynəlxalq mənafeyinə uyğun olaraq aparılırdı. Xüsusilə, Sovet İttifaqı ilə münasibətlər, Yaxın və Orta Şərq məsələləri, Hind okeanı hövzəsi ölkələri ilə əməkdaşlıq ciddi diqqət mərkəzində saxlanılırdı. Həmçinin, Afrika siyasəti də əhəmiyyət daşımaqda idi. Ümumiyyətlə, məqalədə Karter və onun xarici siyasətinin əsas məsələləri yüksək elmiliklə təhlil edilir.*

**Açar sözlər:** siyasət, əməkdaşlıq, modernləşdirilmə, beynəlxalq, lider

**Ключевые слово:** политика, сотрудничество, модернизация, международная, лидер.

**Key words:** politics, cooperation, modernization, lnternational, leader

ABŞ-ın 39-cu prezidenti olan Ceyms Karter 1924-cü il oktyabrın 1-də Corciya ştatın Pleynis şəhərində anadan olmuşdur. Atası Erl Karter fermer olsa da "Böyük durğunluq" illəri onun həyatına təsir göstərmişdir. Buna görə də Ceyms hələ uşaqlıq illərindən işləməyə məcbur olmuşdur. Ancaq, bu, onun mükəmməl təhsil almasına mane olmamışdır. Belə ki, orta təhsilini yerli məktəbdə btirən Ceyms 1943-cü ildə Annapolis Hərbi-Dəniz Akademiyasına daxil olur. Akademiyanı miçman rütbəsində bitirərək donanmada yeddi il xidmətə edir. 1953-cü ildə atasının vəfatından sonra O, istefaya çıxır və bundan sonra ailə biznesi ilə məşğul olur. Tezliklə, Karter artıq nüfuzlu biznesmen kimi tanınmağa başlayır. Təbii ki, bu, böyük nailiyyət demək idi. Ancaq, onu qarşıda çox maraqlı hadisələr gözləyirdi. Belə ki,1962-ci ildə Karter Corciya senatına seçilir, 1966-cı ildə isə demokrat partiyasının nümayəndəsi kimi qubernator seçkilərində iştirak edir, ancaq, müvəffəqiyyət qazana bilmir. Buna baxmayaraq, 1970-ci ildə asanlıqla qubernator seçilir.

Nəhayət, 1976-cı ildə demokratların namizədi kimi Cerald Forda qalib gələrək prezident vəzifəsi postunu tutur. Nikson sindromunu dəf etmək məqsədilə Karter idarəetməyə yeni çalarlar əlavə etdi. İnauqurasiya günü Kapitolidən Ağ Evə ənənəvi olaraq limuzində deyil piyada getməsi, prezident himninin çalınmasının yasaqlanması, səfərə gedərkən əl baqajını özü götürməsi kimi formal dəyişikliklər edildi (1, 215). Bütün bunlar ona ictimaiyyət arasında böyük nüfuz gətirdi.

Son illər Amerika siyasətini tənqid edən, ölkəsinin ünvanına "Bu gün Amerika Birləşmiş Ştatlarında demokratiya adlı bir şey yoxdur" fikrini cəsarətlə ifadə edən Karter prezident kimi fəaliyyətə başladığı ilk gün amerikasayağı demokratiya ilə üzləşib. Belə ki, Karter Ağ Evin "Oval" kabinetinə prezident kimi birinci dəfə daxil olanda xoşagəlməz qoxu hiss edib və təcili olaraq adminstrasiya rəhbərliyini çağırtdıraraq qoxunun səbəbini aydınlaşdırmağı xahiş edib. Məlum olub ki, prezidentin otağından ölmüş siçovulun üfunətli iyi gəlir. Bundan əsəbləşən Karter vaxtında ölmüş siçovulun kabinetdən götürülməməsini adminstrasiya rəhbərliyinə irad tutanda çox qəribə bir cavabla rastlaşıb. Ağ Evin inzibatçıları bu işin onların səlahiyyəti daxilində olmadığını söyləyiblər və qeyd ediblər ki, bu məsələ ilə Daxili İşlər Nazirliyi məşğul olmalıdır. Çünki, ölkədə ekoloji məsələlər, heyvanların mühafizəsi, qorunması, bu sahə ilə bağlı problemlər də məhz, onların səlahiyyəti daxilindədir. Təbii ki, bu cavabdan sonra Karter Daxili İşlər Nazirliyinin rəhbərliyini Ağ Evə dəvət edib. Məsələni onlara agah edəndə bu dəfə də qəribə cavab alıb. Nazirlik nümayəndələri bildiriblər ki, "biz Ağ Evin həyətindəki yaşıllıqlarda, bağlarda olan vəziyyətə cavabdehik, siçovul isə artıq içəridədir və ona adminstrasiya məsuliyyət daşıyır". Səbri tükənən Karter hər iki qurumun rəhbərliyinə tapşırıb ki, birgə bu məsələni təcili həll etsinlər. Adminstrasiya və nazirlik nümayəndələrindən ibarət komissiya yaradılıb və siçovulun prezident kabinetindən kənarlaşdırılması nəhayət ki, təmin olunub. Problem həll olunduqdan sonra Karter bu məsələyə bircə sözlə münasibət bildirib: "Demokratiya" (7,1).

Ceyms Karterin xarici siyasəti çox istiqamətli olmuşdur. Öncə qeyd edilməlidir ki, Vaşinqtonunn ənənəvi qlobal məsələlər siyasəti aparıcı istiqamət hesab edilirdi. Bu siyasətin

mahiyyəti ABŞ-ın kapitalizm sistemində və beynəlxalq müstəvidə liderlik rolunu qoruyub saxlamaqdan ibarət idi.

ABŞ-ın xarici siyasətində digər mühüm istiqamət Qərbi Avropa dövlətləri ilə əməkdaşlığın inkişaf etdirilməsi idi. Bu baxımdan NATO-nun Avropada rolunun möhkəmləndirilməsi, Qərbi Avropanın ayrı-ayrı ölkələrində yerləşdirilmiş silahlarınn modernləşdirilməsi və buna müvafiq olaraq hərbi xərcləri artılmasınını xüsusi qeyd etmək olar.

ABŞ-ın Qərb yarımkürəsində fəal siyasəti diqqəti cəlb edən istiqamətlərdən biri idi. Belə ki, Kanadanın separatçılar tərəfindən parçalanmasının qarşısını almaq məqsədilə aktiv fəaliyyət özünün müsbət nəticələrini verdi. Separatçılar istəklərinə nail ola bilmədilər.

Regionun mühüm mərkəzləri olan Latın Amerikasının nüfuzlu dövlətləri münasibətlərə də ciddi diqqət yetirildi. Karter SSRİ-nin regiona müdaxiləsinə qarşı açıq şəkildə çıxış etdi. Qeyd etmək lazımdır ki, Latın Amerikası ölkələri Kuba istisna olmaqla ABŞ-dan iqtisadi asılılıq vəziyyətində idi. Doğrudur, Nikaraqua və Qrenada xalqları azadlıq qazanmış, bununla belə Karter hökuməti bütövlükdə

Latın Amerikasında hərbi-diktator rejimlərini açıq şəkildə müdafiə edirdi.

ABŞ-ın Karib dənizindəki hərbi-dəniz qüvvələrinin komandanı A. Noyzen Puerto-Rikodakı vəziyyəti səciyyələndirərək demişdir ki, Pentaqon “Kubada, Nikaraquada və Qrenadada baş vermiş hadisələrə bənzər dəyişikliklərin adada həyata keçirilməsinə yol verməyəcəkdir” (4,1).

Qeyd etmək lazımdır ki, Salvadorda baş vermiş hadisələr bunun bariz nümunəsidir. Salvadorda mövcud rejimi qoruyub saxlamaq üçün Pentaqondan xüsusi təlimatçılar göndərilirdi. Eyni zamanda Karib hövzəsində yerləşən bazalardakı qoşunlar da döyüş hazırlığı vəziyyətinə gətirilmişdi. Bütün bunlara baxmayaraq, Salvador xalqı xuntaya qarşı mübarizəsini davam etdirirdi.

Belə şəraitdə Karter hökuməti hərbi xərcləri 1977-ci ildəki 100,1 milyard dollardan 1980-ci ildə 130 milyard dollara çatdırdı (3, 30).

1979-cu ilin noyabr ayında Boqotada Latın Amerikası dövlətlərinin silahlı qüvvələrinin hərbi rəhbərlərinin müşavirəsi keçirilir. Müşavirədə pozucu kommunist qüvvələrə qarşı fəaliyyət planı müzakirə edildi. Planda “siyasi boşluq” yarandığı vaxt hərbi qulluqçuların hakimiyyəti alması zəruri hesab olunurdu.

Karter hökumətinin planları sırasında Panama kanalı haqqında yeni müqavilənin bağlanması məsələsi xüsusi qeyd edilməlidir. 1977-ci il sentyabr 7-də Vaşinqton şəhərində Panama kanalının yeni statusuna dair müqavilə imzalandı. Müqavilə 1978-ci ilin mart-aprel ayında keçirilmiş müzakirələrdən sonra senat tərəfindən təsdiq edildi. Həmçinin, müqavilədə göstərilirdi ki, Panama kanalı 2000-ci ilədək tam şəkildə Panamanın nəzarəti altına keçməlidir. Ancaq, Birləşmiş Ştatların Panama kanalı ərazisində əsas hüquqlarına toxunulmamışdı.

Karterin xarici siyasətində Şərq istiqaməti ciddi əhəmiyyət daşıyırdı. Bu mənada Yaxın və Orta Şərq, xüsusilə, İran mühüm yer tuturdu.

1978-1979-cu illər İran inqilabndan sonra İslam Respublikası hökuməti ABŞ-ı əsas düşmən, SSRİ və İsraillə yanaşı “üç şeytandan” biri elan etdi. İrana qarşı siyasətdə qarşı uğursuzluq Karter hökumətinin nüfuzuna zərbə vurdu.

1977-ci ilin oktyabr ayında “Ərəb-İsrail ziddiyyətlərinin ədalətli həlli və qaydaya salınmasına dair” Sovet-Amerika bəyanatı dərc edildi. 1978-ci ilin sentyabr ayında isə Kemp-Deviddə C. Karterin Misir prezidenti Ə. Sadat və İsrailin baş naziri M. Beginlə “Misir-İsrail” razılaşmasına dair görüşünün keçirilməsi diqqəti cəlb etdi. Görüşdə Karter İsrailin planlarının genişlənməsinə hərtərəfli yardım göstərdi.

Belə şəraitdə Karter hökuməti ÇXR-ı ilə siyasi və iqtisadi münasibətləri möhkəmləndirdi. 1979-cu il yanvarın 1-də isə iki dövlət arasında diplomatik münasibətlər yaradıldı.

Karter xarici siyasətdə Hind okeanı zonasını da xüsusi diqqət mərkəzində saxlayırdı. Karter doktrinasına görə, Hind okeanı və İran körfəzi Qərbi Avropa və Uzaq Şərqlə bərabər, ABŞ-ın həyati əhəmiyyət daşıyan zonası elan edildi.

Karter hökumətinin Afrika qitəsində yeritdiyi xarici siyasətin əsas məqsədi antiamerikan əhval-ruhiyyəsinə son qoymaqdan ibarət idi. ABŞ öz məqsədinə çatmaq üçün silahlı müdaxiləni və zorakılığı deyil, həmin ölkələrə iqtisadi, texniki və maliyyə yardımları etməyi vacib hesab edirdi. Bu məqsədlə 1980-ci illərdə Afrika ölkələrinə edilən yardım 271 milyon dollardan 600 milyon dollara çatdırıldı. Nəticədə ABŞ-ın xarici ölkələrə etdiyi yardımlarda Afrika ölkələrinin ümumi payı artaraq 17%-ə çatdı. ABŞ-ın Afrika ölkələrinə kapital qoyuluşu Cənubi Afrika istisna olmaqla 2 milyard 802 milyon dollardan 3 milyard 730 milyon dollara çatdı. 1976-1980-ci illərdə ABŞ-ın yalnız Cənubi Afrika Respublikasına kapital qyuluşu 1,6 milyard dollardan 2,3 milyard dollara qalxdı (2, 44).

Karter hökumətinin xarici siyasətində BMT, tərksilah və digər qlobal problemlər də mühüm əhəmiyyət daşıyırdı. Bu baxımdan Karter xarici siyasətdə "insan hüquqları" və "əxlaq prinsipləri" nin aparıcı təbliğatçısına çevrilmişdir.

...Mən ötən həftə Kaliforniyada ölkəmiz üçün gündəlikdə dayanan daxili məsələlərdən danışmışam: adamlarımızın ehtiyaclarını ödəmək üçün daha səmərəli fəaliyyət göstərməli; zəmanəmizin bədbinliyinin əksinə olaraq nümayiş etdirməliyik ki, hökumətimiz həm səriştəli, həm də daha humanist ola bilər. Lakin, mən bu gün xaricdə bizim hərəkətləri millətimizin səciyyəvi xüsusiyyətləri ilə birləşdirən bağlardan danışmaq istəyirəm. Mən inanıram ki, biz demokratik, köklü dəyərlərə əsaslanan gücümüzdən və nüfuzumuzdan humanist məqsədlər üçün istifadə edəcək xarici siyasətə malik ola bilərik. Biz, həmçinin, amerikalıların müdafiə etdikləri xarici siyasətə malik ola bilərik. Və bu siyasət dəyişdirilərsə, onlar qabaqcadan məlumatlanacaq və onu başa düşəcəklər.

Mən siyasi sistemimizə inanıram. Demokratiyanın özünü doğrultduğunu bildiyimizə görə insan haqlarını öz əhalisi üçün çox görən hökumətlərin arqumentlərini rədd edirik... Biz gücümüzə inanırıq, ona görə də nüvə silahlarının qarşılıqlı şəkildə məhdudlaşdırılmasına nail ola bilərik. Demokratiyanın Hindistanda, Portuqaliyada, İspaniyada, Yunanıstanda son böyük nailiyyətləri göstərir ki, bizim bu sistemə inamımız əbəs deyildir. Öz gələcəyimizə əminlik yarandıqdan sonra biz bu ifrat kommunizm qorxusundan - bizim qorxumuza şərik olan istənilən diktatorun ağuşuna atan qorxudan yaxamızı qurtarmışıq. Mən şadam ki, bu vəziyyət dəyişir (5,1).

Karter xarici siyasətdə Sovet İttifaqı ilə münasibətlərə prioritet məsələ kimi baxırdı. Hər şeydən öncə Karter hesab edirdi ki, Sovet İttifaqının beynəlxalq münasibətlər sistemində kifayət qədər mühüm rolu vardır. Belə ki, onun Kuba vasitəsilə Qərb yarımkürəsində cərəyan edən hadisələrə fəal müdaaxiləsi tamamilə labüd faktor idi. Buna Kuba rəhbərliyinin aktiv fəaliyyəti ciddi təsir göstərirdi.

Eyni zamanda SSRİ Şərqi Avropa və Asiyada özünün aparıcı rolu saxlamaqda idi. Sovet İttifaqı rəhbərliyi Yaxın və Orta Şərqdə siyasi vəziyyətə hər an müdaxilə edir, özünü Fələstin xalqının müdafiəçisi kimi nümayiş etdirirdi. ABŞ-ın regiona təsirinə qarşı ciddi mübarizə aparırdı.

Bütün bu qarşıdurmalar 1979-cu ildə ABŞ və SSRİ arasında strateji hücum silahlarının məhdudlaşdırılmasına dair sazişin imzalanması ilə nəticələndi.1979-cu ilin dekabr ayında SSRİ-nin Əfqanıstana qoşun yeritməsi Karter tərəfindən kəskin qarşılandı.

BMT-nin Baş Məclisi SSRİ silahlı qüvvələrinin tezliklə Əfqanıstandan çıxarılmasını tələb edən qətnamə qəbul etdi. Bir çox ölkələr 1980-ci ildə Moskvada keçirilən dünya olimpiadasını boykot etdilər. Amerika taxılının SSRİ-yə satılmasına qadağa qoyuldu. Strateji

silahların məhdudlaşdırılması haqqında Sovet-Amerika sazişinin Senatda ratifikasiyası dayandırıldı. Pakistan və İran ərazilərində yüzlərlə düşərgə yaradıldı. Sonralar bu düşərgələr mücahidlər hazırlamaq üçün bazalara çevrilmişdilər. Sovet qoşunlarının Əfqanıstana yeridilməsi o zamankı rəhbərliyin, xüsusən Sovet İKP MK-nın Baş Katibi L.İ.Brejnevin çox böyük siyasi səhvi idi. Sonralar bu səhv ciddi şəkildə pislənildi. SSRİ ilə hesablaşmayan və Əfqanıstanın işğalı ilə razılaşmayan ABŞ Konqresi 1980-ci ilin aprel ayında Əfqanıstan müxalifətinə birbaşa yardım məqsədi ilə 15 milyon dollar yardım ayrılmasına razılıq verdi. Bundan başqa ABŞ və Qərbi Avropa hökumətləri SSRİ qarşı döyüşən əfqan mücahidlərinə külli miqdarda silah-sursat verirdilər. Dünya ictimaiyyətini də SSRİ-nin işğalçı olduğuna inandırırdılar. Bir sözlə, Əfqanıstan müharibəsi Qərblə SSRİ arasında gedən müharibənin sonuncusu oldu. 70-ci illərin sonlarında başlayan müharibə qurtarmaq bilmirdi. Müharibə nəticəsində yaşayış məntəqələri dağıdılmış, əhali kütləvi şakildə (5 milyona yaxın) Pakistana, İrana və başqa ölkələrə qaçmışdılar. Təsərrüfat dağılmış, ərzaq məhsulları istehsalı kəskin surətda aşağı düşmüş, bir çox müəssisələr fəaliyyətini dayandırmışdılar. Aclıq, dağıntı, qardaş qırğını əhalini fəlakət qarşısında qoymuşdu. Bu da etnik, tayfa va siyasi qrupların silahlı mübarizəsinə arxalanan təməlçi islamçı, millətçi cərəyanların mövqelərinin kəskin surətdə güclənməsinə səbəb olmuşdu. Vəziyyəti sabitləşdirmək, vətəndaş müharibəsini dayandırmaq, xarici müdaxiləyə son qoymaq üçün ƏXDP "Əfqanıstanda milli barışıq haqqında" bəyannamə qəbul etdi (8,1).

Araşdırılan dövrdə xarici siyasətdə "Karter doktrinası" nın irəli sürülməsi beynəlxalq münasibətlərə yeni məzmun gətirdi. Qeyd edək ki, "Karter doktrinası" 1980-ci ildə verilmişdi. Doktrinanın mahiyyəti ondan ibarət idi ki, ABŞ müəyyən ərazilərdə lazım gəldikdə nüvə müharibəsi apara bilərdi (6,1). Eyni zamanda ABŞ geniş miqyasda həm Səudiyyə Ərəbistanına, həm də İrana silah göndərməyə başladı.

Beləliklə, ABŞ-ın 39-cu prezidenti Ceyms Karter və onun xarici siyasəti ilə bağlı aşağıdakı elmi nəticələri çıxarmaq olar: 1. C. Karter prezident seçilənədək ABŞ-ın işgüzar və siyasi dairələrində kifayət qədər tanınırdı. Onun qazandığı nailiyyətlər 1976-cı il də keçirilən prezident seçkiləri zamanı C. Ford üzərində qələbənin təmin edilməsinə kömək etdi. 2. Hakimiyyətə gəldikdən dərhal sonra ümumdünya insan hüquqlarının qorunması uğrunda mübarizə aparacağını bəyan etdi. Eyni zamanda ABŞ-ın beynəlxalq müstəvidə nüfuzunu müdafiə etməklə çox vektorlu siyasət siyasət yeritdiyini nümayiş etdirdi. Məhz, bütün bunlara görə uzun illər keçdikdən sonra da olsa, O, 2002-ci ildə Nobel sülh mükafatına layiq görüldü. 3. Məqalədə əldə etdiyimiz nəticələrdən biri də ondan ibarətdir ki, C. Karter hakimiyyətdə olduğu illərdə kifayət qədər qiymətləndirilməsə də, bu gün onun fəaliyyətinə münasibət dəyişmiş, bu, təbii ki, bir tərəfdən ABŞ-da demokratik dəyərlərin inkişafı, digər tərəfdən isə onun demokratik baxışlı dövlət xadimi olması ilə bağlı idi. Məhz, tədqiqatımızda da bu məsələ öz həllini tapdı.

***Ədəbiyyat***

1. Bayramzadə E. ABŞ prezidentləri. B.2012.
2. Fətəliyev M, Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi (1945-2002). II hissə. B. 2008.
3. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. B. 2011.
4. www.google.az. ABŞ-ın xarici siyasəti və A. Noyzen.
5. www.google.az. İnsan haqları və ABŞ-ın xarici siyasəti
6. www.google.az. Karter doktrinası.
7. www.google.az. "Soyuq müharibə". Г. А. Бахтиярлы

## ДЖЕЙМС КАРТЕР И ВНЕШНЯЯ ПОЛИТИКА США

***Бактиярлы Гусейн***

***Резюме***

В статье рассматриваются 39-й президент США Картер и его вопросы внешней политики. Было отмечено, что Картер добился успеха еще до того, как был избран президентом. Президентские выборы 1976 года были более успешными. Он оставался приверженным традиционной политике США после выборов. Сегодня его имя помнят как правозащитника.

## JAMES CARTER AND FOREIGN POLICY OF USA

***Bakhtiyarlı Huseyn***

***Summary***

The article examines the 39-th President of the United States Carter and his foreign policy issues. It was noted that Carter was successful even before he was elected president. The 1976 presidential election was more successful. He remained committed to traditional US policy after the election. Today, his name is remembered as a human rights defender.

***Rəyçi:dosent Elza Paşayeva***
***Ümumi tarix kafedrasının 10 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 24 sentyabr 2021-ci il***

**UOT:94(479.24).**

## AZƏRBAYCAN – TÜRKIYƏ MÜNASIBƏTLƏRINDƏ YENI MƏRHƏLƏ (2003-2008-ci illər)

***t.ü.f.d. Hüseynova Rimunə Zakir qızı***
***Gəncə Dövlət Universitetinin***
***rumina.huseyn@mail.ru***

**Xülasə**:*İlham Əliyevin prezident seçilib, fəaliyyətə başlaması ilə beynəlxalq münasibətlər sferasında nəzərə çarpan uğurlar əldə edildi. Cənab İlham Əliyev regionda müəyyən maraqları olan böyük dövlətlərlə əlaqələri daha da inkişaf etdirmək xəttinə üstünlük verdiyi elə ilk günlərdən hiss olunurdu. Ayrı-ayrı ölkələrin, o cümlədən Türkiyənin Azərbaycanın yeni prezidentinə isti münasibəti də məhz onun praqmatik xarici siyasət yürütməsinə inamdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi balanslaşdırılmış və tolerantlıq prisipinə əsaslanan xarici siyasət strategiyası dünyanın ən qüdrətli dövlətlərini respublikamızın starteji tərəfdaşına çevirmişdir. Cənab İlham Əliyev bu siyasəti davam etdirəcəyini bildirməklə həmin tərəfdaşlığa Azərbaycanın sadiq qalacağını göstərdi. Nəticə özünü bir o qədərdə gözlətmədi və ABŞ, Türkiyə, Rusiya, Fransa, İran kimi nəhəng dövlətlər rəsmi Bakı ilə əlaqələrin bundan sonra da inkişaf etdirəcəklərini bildirdilər.*

**Açar sözlər:** Azərbaycan, Türkiyə, saziş, əlaqələ, görüş müqavilə.

**Ключевые слова:**Азербайджан, Турция, контракт, отношения, встреча, договор.

**Key words:** Azerbaijan, Turkey, agreement,contact, meeting, contract

Türkiyə ilə Azərbaycan arasında heç vaxt problem yaranmayıb və hər iki dövlət münasibətlərin strateji tərəfdaşlıq müstəvisində oluduğuna qəti şəkildə